## Həyat və yaradıcılığı

Azərbaycanda **İntibah dövrü** ədəbiyyatının ilk qüdrətli nümayəndəsi dahi şair **Xaqani Şirvanidir.** O, Nizamiyə qədər ədəbiyyata güclü ictimai-humanist məzmun və yüksək sənətkarlıq gətirmişdir. Xaqani Azərbaycan ədəbiyyatında ilk poemanın müəllifi olmuş, çoxəsrlik tarixə malik qəsidə janrını əlçatmaz bir yüksəkliyə qaldırmışdır. Onun əsərləri çoxcəhətli humanist məzmunu ilə seçilir. İlk dəfə Xaqani irsində şərin ehtiraslı inkarına, xeyrin, gözəlliyin odlu-alovlu təsdiqinə rast gəlirik. Xaqaninin əsərləri dünya ədəbiyyatının, xüsusən İntibah dövrü sənətkarlarının ən yüksək yaradıcılıq nümunələri ilə yanaşı durmağa layiq və qadirdir. Şərqin Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Məhəmməd Füzuli kimi dahiləri Xaqani dühasına pərəstiş etmiş, ondan təsirlənmiş, bəzi əsərlərinə cavablar yazmışlar.

Xaqani Şirvani təqribən 1126-ci ildə Şamaxının tat kəndlərindən biri olan Məlhəm kəndində anadan olub. Şairin adı İbrahim, atasının adı Əli idi. Orta əsr mənbələrində o, belə təqdim edilir: Əbu Bədil Əfzələddin İbrahim ibn Əli Nəccar ibn Osman ibn İbrahim Həqaiqi Həssanul-Əcəm Xaqani Şirvani. Burada Həqaiqi, Həssanul-Əcəm və Xaqani onun təxəllüsü, Əfzələddin ləqəbi, Əbu Bədil kunyəsi və Şirvani mənsub olduğu yerin adı-nisbəsidir. İlk təhsilini əmisindən alıb və dövrünün müxtəlif elmlərinə dərin maraq göstərib.

Gənc yaşlarından yüksək şairlik istedadını göstərən Xaqani Şirvanşahlar sarayına dəvət edilir və orada böyük şöhrət tapır. Saray çəkişmələri nəticəsində şair həbs edilir. Həbsdə olduğu dövrdə o **"Həbsiyyə"** şeirlərini yazır. Daha sonralar Xaqani Yaxın Şərq ölkələrində səfərdə olub və təəssüratlarını poetik əsərlərdə verib.

Xaqani Şirvani dini müxtəlifliyə də yaxından bələd olmuşdur. Əsərlərində dönə-dönə Şamaxı şəhərində, hörmətli bir ailədə doğulduğunu yazan şairin babası toxucu, atası dülgər, əmisi və əmisi oğlu isə həkim və alim idilər. Şairin anası Rabiə müsəlmanlığı qəbul etmiş xristian qızı idi. Anasının atası sərkərdə, babası isə Kiçik Asiyanın Toqat şəhərindən olan möbid imiş. Atası, oğlu İbrahimi də dülgər etmək istəyir, onun təlim-tərbiyəsinə az diqqət yetirirdi.

Əmisi Kafiəddin Ömər ibn Osman onu körpəlikdən öz himayəsinə götürür. Quranı, dilçiliyi, ədəbiyyat, riyaziyyat və başqa yazıları öyrədir. Xaqani ərəb və fars ədəbiyyatını mükəmməl öyrənmiş, öz müəllimi Əbul-ula Gəncəvi vasitəsi ilə Şirvanşah sarayına dəvət olunmuşdur. Xaqani gözəl istişarə və təşbeh ustasıdır. Bununla yanaşı şairin yaradıcılığında mədhiyyələr də geniş yer tutur. Şair həmçinin mürəkkəb bir şairdir.

Xaqaninin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanı, **"Töhfətul-İraqeyn"** poemasından, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Divanındakı şeirlər qəsidə, qəzəl, mədhiyyə, mərsiyə, rübai və s. ibarətdir. Onun ictimai-fəlsəfi məzmunlu əsərlərinə **"Şiniyyə"** və **"Mədain xərabələri"** qəsidələri, "Həbsiyyə" şeirləri və "Töhfətul-İraqeyn" poeması daxildir. Azərbaycan ədəbiyyatında ilk epistolyar məsnəvi sayılan "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi") (1156) poemasında da Xaqani bir sıra simvol və eyhamların köməyi ilə özü ilə mühiti arasında olan dərin ziddiyyətləri açıb göstərməyə nail olub. Bu baxımdan istər Xaqani, istərsə də Nizami yaradıcılığına dialektik

inkişaf meyli xasdır. Bu şairlər təbiət və cəmiyyəti donmuş halda deyil, daim inkişaf və yüksəlişdə götürüb baxmağa güclü meyl nümayiş etdirirlər. Xüsusən Nizami yaradıcılığı bu baxımdan bütövlükdə dünya ədəbiyyatlarında özünəməxsus mərhələ təşkil edir. Xaqani Təbrizdə yaşadığı müddətdə Şərqin bir çox ölkə və şəhərlərində yaşayan dostları, qohumlari ilə yazışırdı. Hələ birinci Kəbə səfərindən sonra Dərbənd və Gəncədə bir növ sürgündə olan şair, orada çoxlu dostlar qazanır, 1159-cu ildə Gəncədə ikən qızdırma xəstəliyinə tutulan və Gəncəli Şəmsəddin Təbib tərəfindən müalicə edilən Xaqani, ehtimal ki, onda 18-19 yaşlarında olan Nizami Gəncəvi ilə də görüşür, dostlaşır. Ona görə də Xaqani ölən zaman Nizami ona mərsiyə yazır. Həmin mərsiyədən hələlik aşağıdakı bir beyt məlumdur:

**Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar,**
**Heyf, Xaqaniyə mən mərsiyə yazdım axır.**

Xaqani Şirvani əslən bir oğuz türkü ailəsində doğulmuşdur. "Töhfətül-İraqeyn"də bununla bağlı yazır: **"Bir Əcəm türküyəm, dəricə deyən, yalvac tanıyanam, Tanrı istəyən".** Buradakı Əcəm türkü ifadəsi eynilə bugünkü Azərbaycan türkü, Azərbaycanlı sözlərinin sinonimi kimi qəbul edilə bilər. Maraqlıdır ki, şair Allah sözü yerinə onun türk qarşılığı kimi Tanrı və peyğəmbər sözünün də qarşılığı olan "yalvac" sözünü işlədir. Ayrı-ayrı şahlara kor-koranə mədh yazmaq dövrü Xaqani yaradıcılığında çox az davam edır. Artıq 23 yaşına qədəm qoyanda şairin mənəvi aləmində bir oyanma baş verir, o, məddahlığım 1157-58 illərdə yazdığı “Töhfətül-İraqeyn” poemasında çox ayıq şəkıldə qiymətləndirərək yazır:

**Əvvəllər şahları mədh etdiyimçün,**
**Dilim bulanmışdı çirkaba bütün.**

Xaqani “Mədain xərabələri” adlı məşhur fəlsəfi qəsidəsində müasirləri üçün maraqlı fikirlər irəli sürüb. O, şeirinin tərbiyəvi gücünə inanır, şairlik sənəti haqqında deyirdi: “**Hər tərbiyəçi şairliyi bacarmaya bilər. Fəqət hər şair tərbiyə verməyi bacarmalıdır!”.** İran dövlətinin keçmiş paytaxtı olan Mədain xərabələri şairi dərin, sarsıdıcı, ibrətli düşüncələr aləminə aparır. Şairin nəzərində Mədainin xərabələri ibrət aynasıdır. Bu ayna qarşısında həyəcanlanmamaq, sarsılmamaq, göz yaşı tökməmək mümkün deyil:

**Bir vaxt bu eyvanın astanasını üzlər,**
**Saldıqları nəqş ilə etmişdi nigaristan.**
**Burda nökər olmuşdur Babil şahi illərlə**
**Bu qəsrə qulam olmuş bir vaxt şəhi-Türküstan.**
**Etmiş buradan bir gün şiri-fələkə həmlə**
**Cürətlə o aslan ki, yonmuşlar onu daşdan.**
**Zənn eylə o əyyamdır, fikr ilə nəzər sal, gör,**
**Dərgah haman dərgah, meydan haman meydan.**

Şirvanşahlar sarayından qaçmağa çalışması, iki dəfə həbsə düşməsi, 1176 ildə Təbrizə köçüb, saraylardan uzaq həyat keçirməsi, müxtəlif hökmdarların dəvətini rədd etməsi də şairin söz və fikirlərində ardıcıl olduğunu təsdiq edir. Xaqani ömrü boyu həyat həqiqətlərini güzgü kimi əks etdirməyə çalışmış, məddahlığını isə yalançılıq hesab edib ondan üz döndərmişdir:

**İlhamım yalanla xarab olmuşdu,**
**O, civə rəngində şərab olmuşdu.**
**İndi hər sözümdə bir həqiqət var,**
**O, güzgü, məhək tək olmuşdur meyar.**

Güclü humanizm, cəsarətli inkar, işığa ehtiraslı meyl Xaqani poemasının əsas məziyyətidir. Şair sadə zəhmət adamları olan babasından, atası Əli Nəccardan, anası Rabiədən, təbib və alim əmisindən, əmisi oğlundan məhəbbətlə söz açır, özünü onlarla müqayisə edir:

**Sənətcə toxucu olmuşdur babam,**
**Mən də yavaş-yavaş söz toxuyuram.**
**Mənəm bax bu günün əziz insanı,**
**Mənəm söz toxuyan şair Xaqani.**

Əmisi Kafiəddin Ömər ibn Osman haqqında şair dərin məhəbbətlə bəhs edir. Ərəstu, Əflatun, Hermes kimi antik alimlərlə əmisini müqayisə edən Xaqani əmisinin onun şair kimi yetişməsindəki xidmətindən geniş söz açır:

**Gördü söz mülkünün hakimi mənəm,**
**Adıma söylədi Həssani-Əcəm.**
**Qəlbimin ayağı xəznəyə batdı,**
**Ömrümsə iyirmi beş ilə çaldı.**
**Bildi söz mülkünə mənəm hökmran,**
**Qarşımda fərəhdən əmim verdi can.**

Xaqani irsinin mühüm qismini qəzəllər təşkil edir. Onun qəzəl yaradıcılığı o biri əsərlərindən müəyyən dərəcədə seçilir. Şair bu janrın tələblərinə riayət edir, məhəbbət motivini ön plana çəkir. Əsasən, aşiqanə qəzəl yazan şair sözarası ictimai hadisələrə də toxunur, dövrdən narazılığını bildirir. Türk alimi Əhməd Ateşin qənaətinə görə, artıq Xaqani irsində qəzəl bir janr kimi sabitləşir. Bu dövrdə başqa şairlərdə olduğu kimi, Xaqani qəzəlləri də mövzuca bütövdür. Onlarda nikbinlik duyğusu vardır. Xaqani də Şərq intibahının başqa şairləri kimi eşqi ən ülvi bir hiss olaraq tərənnüm edir.

Xaqani yaradıcılığında qitə şəkli də mühüm yer tutur. Onun qitələrində ya olmuş hadisə və fakta münasibət əks olunur, ya da ictimai, əxlaqi, fəlsəfi bir məsələ ətrafında fikir

yürüdülür, hər qitənin də əsasında bir fakt, bir fikir, ideya durur. Əgər qəsidələrdə şair müxtəlif məsələlər ətrafında geniş, rəngarəng düşüncə və fikirlər silsiləsi yaradırsa, qəzəllərdə daha çox insan qəlbinin ülvi, yüksək duyğularını əks etdirirsə, qitələrində ancaq bir mətləb izlənilir, bir neçə beyt əsasında həmin mətləb ifadə olunur. Bu ümumi keyfiyyətlə bərabər, Xaqani qitələrində konkretlik özünü aydın göstərir.

Xaqani əsərlərini fars və ərəb dillərində yazsa da, şeirə gətirdiyi bir sıra yeniliklərinə və ədəbi-bədii xüsusiyyətlərinə görə Azərbaycan məktəbini təmsil edib. Xaqaninin əsərlərində Şərqin bir çox görkəmli şairləri nəzirələr yazıb. Şairin bədii irsinin öyrənilməsi ilə Azərbaycan, İran, Rusiya, Hindistan, Pakistan və Qərbi Avropa tədqiqatçıları məşğul olub. Azərbaycan alimləri şairin həyatını və yaradıcılığını öyrənməklə dəyərli işlər görüb. Xaqaninin poetik əsərlərinin müəyyən hissəsinin Azərbaycan dilinə tərcüməsi M.Rahim, Ə.Vahid, M.Mübariz və başqalarına məxsusdur.

Xaqani Şirvaninin əsərləri Hindistanda, İranda dəfələrlə çap edilib. Yaradıcılığı 12-ci əsrdən tədqiqatçıların diqqətini cəlb edib, Azərbaycan, rus, Qərbi Avropa, İran, Türkiyə, Hindistan və s. ölkələrin şərqşünasları tərəfindən öyrənilib.

Azərbaycanda Xaqani irsinin öyrənilməsi ilə H.Araslı, M.Quluzadə, M.Sultanov, Q.Kəndli məşğul olmuşlar. M.Sultanov Xaqani irsinin nəşri və tərcüməsi sahəsində xeyli iş görməklə bərabər, onun haqqında ilk monoqrafiyanı da qələmə almışdır. Xaqani irsinin tədqiqi ilə ardıcıl şəkildə Qafar Kəndli məşğul olmuş, ölkəmizdə və xaricdə şair haqqında bir sıra samballı məqalələr dərc etdirmişdir. O, uzun illərdən bəri apardığı tədqiqatın bir hissəsini "Xaqani Şirvani: həyatı, dövrü və mühiti" adı ilə nəşr etdirmişdir. Zəngin faktik material əsasında yaradılan bu tədqiqat işi bütünlüklə klassik irsin öyrənilməsində yeni hadisədir.

Xaqani poeziyası öz dövrundən başlayaraq bu günə qədər Şərqin, o cümlədən Azərbaycanın bir çox sənətkarları üçün örnək, nümunə olmuşdur. Əmir Xosrov Dəhləvi, Əbdurrəhman Cami, Məhəmməd Fizuli kimi sənətkarlar bu dahi şairin "Şiniyyə"sinə cavab yazmış, Seyid Əzim Şirvani özünü onun naibi saymış, Sabir bəzi mənaları ondan iqtibas etmişdir. Xaqani yaradıcılığı Azərbaycan və dünya poeziyasının qiymətli hadisələrindən biridir. Xaqani Şirvani vətənpərvər bir şair idi. O, vətəni Şirvanı füsunkar təbiəti, bolluq, bərəkət ölkəsi, şairlər ocağı kimi tərənnüm edib. Azərbaycan ədəbiyyatı tarixində Qətran Təbrizi ilə başlanan qəzəl janrı Xaqani Şirvani və Nizami Gəncəvi yaradıcılığında kamillik dərəcəsinə çatıb. Cərəyan edən hadisələri real surətdə əks etdirməyə çalışan şair, saraylara nifrətini, xalqa yaxınlıq və sədaqətini, “Xaqani” deyil, “Xəlqani” olduğunu poetik bir dillə bildirib. Xaqani Şirvani eyni zamanda mahir bir nasir olub. O, “Töhfətül İraqeyn” məsnəvisində nəsrlə yazdığı müqəddimə və dövrünün məşhur adamlarına mürəkkəb bədii tərzli ifadələrlə yazdığı məktubları, istişarə, eyham və mübaliğələri ilə diqqəti cəlb edib.

Xaqani Şirvani 1199-cu ildə vəfat edib və Təbrizin "Şairlər qəbiristanlığı"nda dəfn edilib. Şairin məzarı “Şairlər məqbərəsi” adlanan yerdədir. Xaqani Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanınıb. Onun qəzəl və rübailərində Azərbaycan poeziya məktəbinin ən yaxşı ənənələrinin əsası qoyulub. Xaqani yaradıcılığında Azərbaycan poetik məktəbinin öz əksini tapan xüsusiyyətlərindən biri də

türklüyə dərin məhəbbətdir. Sonralar Nizami yaradıcılığında bu xüsusiyyət özünün zirvəsinə çatıb.